# Qəbələ Rayon Təhsil Şöbəsi yeni tədris ilinə hazırdır

Qəbələ Rayon Təhsil Şöbəsi 2021-ci ilin 9 ayında öz işini müasir tələblər səviyyəsində qurmuşdur. Pandemiyanın yaratdığı problemlə bağlı qabaqlayıcı tədbirlər həyata keçirilmişdir.

Təhsil sahəsində çalışan 3387 nəfər işçidən 3118 nəfəri vaksinasiya olunmuşdur. Vaksinasiya olunmayan 269 nəfərdən 76 nəfər koronavirus, 185 nəfəri xəstəlik səbəbindən üzürlü, 8 nəfəri isə əsaslı səbəb olmadan vaksinasiya olunmamışdır. Hal-hazırda onların vaksinasiyaya cəlb olunması işi davam etdirilir.

Distant təhsillə bağlı bütün mümkün olan işlər görülmüş, "Virtual məktəb" platforması işlək vəziyyətə gətirilmiş, tele-dərslər, məsafədən təhsilin tətbiqi üçün lazımi infrastrukturların yaradılması təmin edilmişdir.

Bütün tədris ili ərzində pandemiya dövrünün tələblərinə uyğun olaraq rayonumuzun bütün ümumtəhsil müəssisələrində əyani (ənənəvi) təhsilə keçidlə bağlı (I-IX siniflər) sosial-davranış qaydaları lazımi qaydada təşkil edilmişdir.

Xususi karantin rejimi dövründə təhsil müəssisələrində bütün fənlər üzrə proqram və materialların şagirdlər tərəfindən mənimsənilməsinin summativ qiymətləndirməsi əyani formada aparılmışdır.

Ümumi (9 illik) orta təhsil bazasında ümumtəhsil müəssisələrində təhsilalanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanları aparılmışdır. 03 iyun 2021-ci il tarixində 7 imtahan mərkəzində təşkil olunan buraxılış imtahanında iştirak edən 1502 şagird 3 fənn üzrə (ana dili , riyaziyyat, xarici dil) imtahan vermişdir. Vəndam 1 saylı tam orta məktəbin şagirdi Bağırova Güllər Qubad qızı 297 bal toplayaraq ən yüksək nəticə göstərmişdir.

Şagirdlərin dərin, əsaslı, fundamental bilik almalarında, istedadlı şagirdlərin müəyyən edilməsi, onlarla aparılan işlərin təşkili, həmin uşaqlarda axtarıcılıq, tədqiqatçılıq meyllərinin gücləndirilməsində fənn olimpiadalarının rolu olduqca böyükdür. Buna görə də təhsil şöbəsi, ümumtəhsil məktəblərinin rəhbərləri, həmçinin rayonun qabaqcıl fənn müəllimləri bu sahədə işi həmişə diqqət mərkəzində saxlayırlar. Görülən işlərin nəticəsidir ki, 2021-cu ilin 31 may və 3 iyun tarixlərində Bakı şəhərində keçirilən fənn olimpiadasının respublika turunda rayon məktəblilərindən yeddi nəfəri qalib olmuşdur.

2020-2021-ci tədris ilinin nəticələrinə görə məktəbi bitirən 1055 nəfər məzundan 668 nəfəri ali məktəblərə sənəd vermişdir ki, onlardan 99 nəfəri 500-dən, 34 nəfəri 600-dən yuxarı 10 nəfər isə 650 dən yuxarı bal toplamışlar. Bir nəfər məzun qızıl, iki nəfər isə gümüş medal qazanmışdır:

***1. Qaragözova Aysu Hidayət qızı, qızıl medal-şəhər 4 saylı tam orta məktəb.***

***2. Cəfərova Həqiqət Vüqar qızı, gümüş medal-şəhər 4 saylı tam orta məktəb.***

***3. Mirzəmmədova Nuray Elbrus qızı, gümüş medal,-Soltannuxa kənd tam orta məktəb.***

2021-2022-ci tədris ilində 1280 şagirdin hazırlıq qurupuna, 1616 şagirdin isə I sinfə qəbulu proqnozlaşdırılmışdır.

Rayonda məktəblərin madditexniki bazasının möhkəmləndirilməsi, yeni məktəb binası və əlavə sinif otaqlarının tikintisi, əsaslı və cari təmiri işləri xüsusi diqqət mərkəzindədir. Ölkə başçısının may ayında Qəbələ rayonuna səfəri zamanı Zarağan 1 saylı tam orta məktəb üçün 528 yerlik, Nic qəsəbə 1 və 4 saylı tam orta məktəbləri üçün isə hər birinə 360 yerlik yeni məktəb binasının tikintisi ilə bağlı müraciət müsbət həll olunmuş və hal- hazırda Zarağan 1 saylı tam orta məktəbində tikinti işləri davam etdirilir. Adı qeyd olunan digər məktəblərdə isə tikinti ilə bağlı hazırlıq işləri aparılır.

**Qəbələ Rayon Təhsil Şöbəsi.**

---

Torpaq uğrunda ölən varsa vətəndir

# Qəbələ şəhidlərinin xatirəsi əbədiləşdirilmişdir

Qəbələ şəhərində Vətən müharibəsində qəhrəmanlıqlar göstərərək şəhidlik zirvəsinə



*Şəhid hərbi həkim, baş leytenant Ənvərli Aqşin Faiq oğlu.*

ucalmış eloğlularımızın xatirəsi həmişə əziz tutulur.

Bu günlərdə onların xatirəsini əbədiləşdirmək məqsədilə şəhid bulağı və abidə-bulaq kompleksi inşa edilmişdir.

Şəhidlik zirvəsinə ucalmış hərbi həkim Ənvərli Aqşin Faiq oğlunun xatirəsini əbədiləşdirmək məqsədilə bulaq kompleksi inşa edilmişdir. Kompleksin açılış mərasimi keçirilmişdir.

Rayonumuzun Laza kəndində vətən müharibəsində qəhrəmanlıqlar göstərən və canını vətənin azadlığı uğruna qurban verən Əmirvan kənd sakini şəhid Elvin Abdurahmanovun xatirəsini əbədiləşdirmək üçün bulaq kompleksinin açılışı keçirilmişdir.



*Yeni Dizaxlı kənd şəhidləri kompleksi.*

Yeni Dizaxlı kənd sakinləri kəndin şəhid oğullarının xatirəsini əbədiləşdirmək üçün abidəbulaq kopleksi inşa etmiş və açılış mərasimi keçirmişlər.

Açılış tədbirlərində rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların nümayəndələri, şəhidlərin ailə üzvləri və təhsil aldıqları məktəblərin kollektivləri iştirak ediblər. Çıxış edənlər ötən il sentyabrın 27-də başlanan və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan qələbənin tarixi əhəmiyyətindən, şəhidlərin şərəfli döyüş yollarından danışmış və onların xatirələrinin heç bir zaman unudulmayacağını vurğulamışlar. Şəhidlərin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirmişlər.



*Şəhid Abdurahmanov Elvin Əbülfəs oğlu.*

---

Son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları" çərçivəsində respublikamızın bütün bölgələrində, o cüm-

# Qəbələ şəhərinin küçə və dalanlarının asfaltlaşdırılması istiqamətində işlər davam etdirilir

lədən Qəbələ rayonunda aparılan abadlıq-quruculuq işləri ildənilə geniş vüsət alır. Rayonumuzda bu istiqamətdə tədbirlərin həyata keçirilməsi daim diqqət mər-



kəzində saxlanılır. Şəhərin daxili küçə və dalanlarının asfaltlaşdırılması istiqamətində Qəbələ şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi tərəfindən M. Məmmədov, Ə. Cavadov, O. Sadıqov, M. Əzizli, K. Kərimov küçələrinə, U. Musabəyova küçəsində 1 dalan və Heydər Əliyev prospektində 6 dalana asfalt örtüyü çəkilir.

---

**Adına layiq olardı**

Arzular sözlə ifadə olunmasa duyulmaz ki... Gərək o arzuları dilə gətirəsən ki, arzu olub olmadığı bilinsin. Ancaq elə arzu və istəklər var ki, onlar ümumiləşir və ümumxalq istəyi olur. Ümumiləşən bir istək hər kəsə nəsib olmaz. Belə istəklər xalqı üçün yanan ürəklərə aid olar. İnsanlığın zirvəsinə qədəm qoyan, vicdanın diqtəsi ilə yaşayan və insanlığı təsdiq edənlərin, tək özü üçün deyil, xalqı üçün, insanlıq məfhumunun təsdiqini əks etdirən bir ömür yaşayanlara aiddir ümumxalq istək. Ona görə ki, sabahkı nəsil and yerini tanısın. Gələcək nəsil örnək məfhumunu anlaya bilsin. Polad Həşimov Qəbə-

# Arzular... Reallığa doğru...

lədə - Vəndam qəsəbəsində doğulsa da, sumqayıtlı sayılır. Vəndam onun ata-ana yurdudur və o, orada cəmi beş ay yaşayıb. Qucaqda körpə ikən Sumqayıta gəlib, burada məskunlaşıb. Əlbəttə, Qəbələ - Vəndam onun həmişə bayram və tətillərdə yaşadığı məkan, ən çox sevdiyi baba yurdu, ziyarətgah olmuşdur. Ancaq uşaqlığı da, gəncliyi də Sumqayıtda keçmiş, burada boya-başa çatmışdır. Sumqayıt onun üçün doğma və əzizdir - Vətəndir: Sumqayıt məktəblisi, Sumqayıt sakini və vətəndaşı olmuşdur. Hərbi zabit məktəbinə burada getmiş, hərbi fəaliyyəti dövründə atasının, anasının - əzizlərinin qarşısına Sumqayıt vətəndaşı kimi gəlmişdir. Onun qazandığı qələbələrə, Fəxri adlara qəbələlilərdən çox sumqayıtlılar - oxuduğu məktəbin müəllim və şagird kollektivi, yaşadığı binanın sakinləri daha çox sevinmiş, uşaqlıq dostları daima onunla fəxr etmişlər! Sumqayıtda məskunlaşan məcburi köçkünlər ona daha çox ümid etmişlər. Ümid etmişlər ki, torpaqları qaytarılacaq - Polad kimi zabiti, mayoru, generalı olan bir ölkə mütləq zəfər coşqusunu bu xalqa yaşadacaq! Və yaşatdı da!..

2020-ci ilin İyul hadisələri zamanı səngər generalı kimi şəhid olan general öz ölümü ilə sanki milli bir oyanış etdi. Xalq onun cənazəsini qarşılayanda ona qarşı olan istək, ona olan inamın təcəssümü idi. Onun ölümü inanılmaz idi. Çünki insanlığın əfsanəvi qəhrəmanı idi Polad. Mülayim tərzli görünən, zəhmindən hər kəsin onun qarşısında sanki həmişə hərbi vəziyyətdə olan, sağlığında insanları arxasınca apara biləcək bir qabiliyyətdə olan Polad bütün Azərbaycanı öz ölümü ilə təlatümə gətirmişdi. Təkcə Qəbələ və Sumqayıtda küçə və meydanlar deyil, Azərbaycanın bütün bölgələrində hamı küçə və meydanlara yığışır və onun ölümünə heç inanmazdılar...

Polad ölümü ilə torpaqlarımızın azadlığı uğrunda mübarizəni alovlandırdı, qələbəyə, ordunun gücünə inam yaratdı. Poladın ölümü 44 günlük müharibəyə bir qığılcım oldu.

(Ardı 8-ci səhifədə).